# XX əsrin ən qanlı soyqırımı–Xocalı faciəsi

## *Faciə qurbanlarının xatirəsi böyük ehtiramla yad edildi*




### Gəncə

Gəncədə Xocalı sakinləri üçün yeni salınan qəsəbədə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovun, şəhər rəsmilərinin, ziyalıların, Xocalıdan və digər işğal altında olan ərazilərdən Gəncədə məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin iştirakı ilə mərkəzi hissədə inşa olunmuş əzəmətli "Xocalı" abidəsinin önündə xalqımızın qan yaddaşı olan Xocalı soyqırımının 27-ci ildönümünə həsr edilən geniş tədbir keçirildi. İlk öncə, "Xocalı faciəsi" qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

1992-ci ilin fevralın 25-dən 26-na keçən gecə Ermənistan hərbi birləşmələri tərəfindən törədilmiş Xocalı soyqırımı cinayətləri yaddaşlardan heç vaxt çıxmayacaq. Bu kütləvi qırğında yüzlərlə insan vəhşicəsinə qətlə yetirilib, yandırılıb və girov götürülüb. Bu işğal nəticəsində, Xocalı rayonunun ən qədim tarixi, mədəni, dini abidələri, şəhər və kəndləri, iqtisadi obyektləri dağıdıldı.

Xocalının qəhrəman və fədakar insanları düşmən qarşısında sınmadılar, sonadək vuruşaraq Vətənə sədaqət nümunəsi, rəşadət və igidlik göstərdilər. Hadisə şahidləri bildirdilər ki, bu gün xocalılılar ölkənin müxtəlif bölgələrində məskunlaşıblar, amma hər birinin məqsədi, arzusu doğma torpaqlara, Xocalıya qayıtmaq, işğal olunmuş torpaqları azad etməkdir.

Sonra Gəncə Dövlət Dram Teatrının aktyorları tərəfindən yüksək peşəkarlıqla ədəbi-bədii kompozisiya nümayiş etdirildi, gənc rəssamların Xocalı faciəsinə həsr etdikləri sərgiyə baxış oldu.

Mərasimin sonunda şəhər rəhbəri Niyazi Bayramov Xocalı sakinləri ilə görüşüb, onların problemləri ilə maraqlandı.

* * *

Bəşər tarixinin ən qanlı faciələrindən olan Xocalı soyqırımının 27-ci ildönümü Gəncə Dövlət Universitetinin kollektivi tərəfindən dərin kədər və hüznlə anıldı. İlk öncə foyedə sərgilənən və Xocalı dəhşətlərini əks etdirən rəsm əsərlərinə baxış oldu. Sonra Xocalıda şəhid olan soydaşlarımızın xatirəsi yad edilib, faciəyə həsr olunan videoçarx göstərildi. Tədbirdə çıxış edən GDU-nun rektoru, professor Yusif Yusibov bildirdi ki, tarixin müxtəlif dövrlərində Azərbaycan xalqı ermənilər tərəfindən soyqırıma məruz qalıb. 1992-ci ilin o müdhiş fevral gecəsində Ermənistan silahlı birləşmələrinin Rusiya tabeçiliyində olan Sovet İttifaqı ordusunun 366-cı alayının iştirakı ilə Xocalı sakinlərinə qarşı törətdikləri dəhşətli soyqırımı aktı insanlığa qarşı vəhşiliyinə, qəddarlığına görə ən dəhşətli kütləvi qətliam hadisələrindən biri kimi tarixə düşüb. Ulu öndər Heydər Əliyevin siyasətini uğurla və layiqincə yerinə yetirən ölkə Prezidenti cənab İlham Əliyevin diplomatiyası sayəsində artıq dünya ictimaiyyəti başa düşür ki, Ermənistanın dövlət siyasətinin əsasında terrorçuluq və işğalçılıq siyasəti dayanır. Xocalı həqiqətlərinin dünyaya çatdırılması, bu həqiqətlərin beynəlxalq aləmdə yayılması, qətliama obyektiv qiymət verilməsi istiqamətində Heydər Əliyev Fondunun gördüyü işləri xüsusi minnətdarlıq hissi ilə qeyd etmək lazımdır.

Xocalı faciəsi Azərbaycan xalqının heç vaxt unudulmayacaq və ibrət dərsi götürüləcək qan yaddaşıdır. Xocalı soyqırımının tanınması ilə bağlı əldə olunan təqdirəlayiq nəticələr onu deməyə əsas verir ki, bu faciəni törədənlər tezliklə ədalət mühakiməsi qarşısına çıxacaq, öz dəhşətli cinayətlərinə görə cavab verməli olacaqlar. Sonda universitet tələbələrinin iştirakı ilə ədəbi-bədii kompozisiya təqdim olundu.

### Lənkəran

XX əsrin ən dəhşətli faciəsi olan Xocalı qətliamından 27 il keçir. Bu ildönümülə əlaqədar rayonun idarə, müəssisə və təşkilatlarında, Heydər Əliyev Mərkəzində, Lənkəran Dövlət Universitetində, orta ixtisas və ümumtəhsil məktəblərində, mədəniyyət ocaqlarında anım tədbirləri, xatirə gecələri, rəsm və kitab sərgiləri təşkil edilib. Təhsil ocaqlarında Xocalı soyqırımına həsr edilmiş dərslər keçirilib. Faciə qurbanlarının xatirəsi hər yerdə ehtiramla anılıb.

Lənkəran şəhərində Azərbaycanlıların soyqırımı qurbanlarının xatirə parkında ucaldılmış "Ana heykəli" qarşısında Xocalı faciəsinin 27-ci ildönümü ilə bağlı ümumrayon anım mərasimi keçirilib.

Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, icra aparatının məsul işçiləri, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, rayon ictimaiyyətinin nümayəndələri, tələbələr, gənclər, hərbi hissələrin əsgər və zabitləri abidə-kompleksinin önünə gül dəstələri düzərək, faciə qurbanlarının xatirəsini dərin hüznlə yad ediblər.

### Astara

Astara şəhərində Xocalı faciəsinin qurbanlarının xatirəsi böyük ehtiramla qeyd olunub. Rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev və icra aparatının işçiləri, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların kollektivləri, inzibati ərazi dairəsi üzrə nümayəndələr, yerli bələdiyyə sədrləri, rayonda fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının və ictimaiyyətin nümayəndələri şəhidlərin xatirə kompleksini ziyarət ediblər. Kompleksin önünə qərənfillər düzüb, şəhidlərin xatirəsinə dərin ehtiramlarını bildiriblər. Kompleksin önündə Xocalı soyqırımından bəhs edən foto-sərgi, kompozisiya nümayiş etdirilib.

Faciə barədə tədbir iştirakçılarına ətraflı məlumat verilib. Qeyd olunub ki, Xocalı qətliamı bəşər tarixində analoqu olmayan qanlı soyqırımıdır. Keçmiş SSRİ-yə məxsus, tərkibi erməni zabitlərindən və əsgərlərindən ibarət olan 366-cı motoatıcı alayın iştirakı ilə Xocalı şəhəri yerlə-yeksan edilmiş, əhalisi dəhşətli soyqırımına məruz qalmışdır. O qanlı gecədə 613 nəfər qətlə yetirilmiş, 1275 nəfər əsir götürülmüş, 487 nəfər ömürlük şikəst olmuş, 6 ailə bütövlüklə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 135 uşaq valideynlərindən birini itirmişdir.

Tədbirdə ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Xocalı və işğal altında olan bütün torpaqlarımızın geri alınacağı günün uzaqda olmadığı qeyd olunub.

### Lerik

XX əsr tariximizin ən qanlı cinayətlərindən olan Xocalı faciəsinin ildönümü ilə əlaqədar Lerik şəhərinin mərkəzindən "Şəhidlər" abidə-kompleksinə ümumrayon yürüşü keçirilib.

Yürüşdə Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, əmək kollektivlərinin nümayəndələri, ağsaqqallar, ziyalılar və rayon sakinləri iştirak ediblər.

Yüzlərlə gənc əllərində faciə zamanı xüsusi qəddarlıqla qətlə yetirilmiş uşaqların, qadınların və qocaların portretlərini, qanlı hadisələrin dəhşətli səhnələrini əks etdirən fotoşəkilləri, faciəni törədənləri cəzalandırmaq, soyqırımına beynəlxalq səviyyədə siyasi-hüquqi qiymət vermək barədə tələbləri əks etdirən plakatlar tutmuşdular.

Tədbir iştirakçıları "Şəhidlər" abidə-kompleksinin önünə gül dəstələri düzərək, şəhidlərin xatirəsini dərin hüznlə yad ediblər.

Anım mərasimində Lerik Rayon İcra Hakimiyyəti başçısı aparatının şöbə müdiri Əlipənah Bayramov çıxış edərək bildirib ki, 27 il əvvəl erməni-rus hərbi birləşmələri tərəfindən 7 min nəfər sakini olan Xocalı şəhəri toplardan və digər ağır hərbi texnikadan şiddətli atəşə tutularaq darmadağın edilib. Dinc əhaliyə vəhşicəsinə divan tutulub. Faciə nəticəsində 25 uşaq hər iki valideynini, 135 uşaq isə valideynlərindən birini itirib, 1275 nəfər sakin girov götürülərək ağlasığmaz təhqirlərə, zülmə və həqarətlərə məruz qalıb.

Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyilə Heydər Əliyev Fondu və xaricdə fəaliyyət göstərən diaspor təşkilatları Xocalı həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması, qanlı faciənin dünyada soyqırımı aktı kimi tanınması istiqamətində ardıcıl iş aparırlar. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində Xocalı soyqırımını olduğu kimi, faktlarla dünya ictimaiyyətinə çatdırmaq məqsədilə filmlər, fotosərgilər nümayiş etdirilir, anım tədbirləri keçirilir. Dünyanın əksər dövlətlərində hər il Xocalı şəhidlərinin xatirəsi ehtiramla yad edilir. Sonra Lerik şəhər 1 saylı texniki fənlər təmayüllü liseyin şagirdlərinin ifasında faciə qurbanlarının xatirəsinə həsr olunmuş ədəbi-bədii kompozisiya nümayiş etdirilib

### Zaqatala

Zaqatala rayonunda Xocalı soyqırımının 27-ci ildönümünə həsr olunmuş ümumrayon tədbiri keçirilmişdir.

Tədbirdə Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə, hüquq-mühafizə orqanlarının rəhbərləri, rayonda məskunlaşmış Xocalı məcburi köçkünləri, rayon ictimaiyyətinin və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etmişlər.

İlk öncə tədbir iştirakçıları soyqırımı abidə-kompleksini ziyarət etmiş, şəhidlərin xatirəsini ehtiramla yad etmişlər. Sonra Rayon İcra Hakimiyyəti başçısı Mübariz Əhmədzadənin "Xocalının səsi" adlı məruzəsi dinlənilmişdir. Natiq çıxış edərək vəhşiləşmiş erməni millətçiləri keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının qüvvələri ilə birlikdə fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərində törətdikləri qırğın nəticəsində 613 nəfər soydaşımızın qəddarlıqla qətlə yetirildiyini, yüzlərlə insanın yaralandığını, 1275 nəfərin isə əsir düşdüyünü qeyd etmiş, həmin gün Xocalıda 8 ailənin tamamilə məhv edildiyini, 25 uşağın hər iki valideynini, 130 uşağın isə valideynlərindən birini itirdiyini xüsusi vurğulamışdır. Yalnız ümummilli liderimiz Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra Xocalı faciəsi ermənilərin Azərbaycan xalqına qarşı həyata keçirdiyi soyqırımı aktı kimi təsbit olunduğunu vurğulamış, hazırda Heydər Əliyev Fondunun dəstəyi ilə Xocalı faciəsinin dünyanın müxtəlif ölkələrində qeyd olunduğunu bildirmişdir.

Sonra tədbirdə çıxış edən Qaçqınların və Məcburi Köçkünlərin işləri üzrə Dövlət Komitəsinin Qax, Zaqatala və Balakən rayonları üzrə nümayəndəsi Vidadi Hacıyev, ziyalılar və gənclər ulu öndər Heydər Əliyevin Xocalı soyqırımının dünyaya tanıdılması istiqamətində yürütdüyü siyasətin hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirildiyini tədbir iştirakçılarının nəzərinə çatdırmışlar.

Sonra rayonda məskunlaşmış 29 Xocalı məcburi köçkün ailələrinə Rayon İcra Hakimiyyəti tərəfindən maddi yardımlar göstərilmişdir.

### İmişli

Xocalı soyqırımı İmişli rayonunda həmişə olduğu kimi, bu il də dərin hüznlə, böyük kədərlə qeyd olundu.

Xocalı faciəsi ilə bağlı ümumrayon anım tədbiri İmişli rayonundakı şəhidlər xiyabanından başladı. Rayonun ictimaiyyəti, fəalları Şəhidlər Xiyabanında abidə-kompleksinin və torpaqlarımızın azadlığı uğrunda canından keçmiş şəhid qəbirlərinin üzərinə qərənfillər düzdülər. Sonra İcra hakimiyyətinin başçısı Vilyam Hacıyev Heydər Əliyev Mərkəzinin akt zalında çıxış edərək bildirdi ki, son illərdə Xocalı faciəsinin dünya miqyasında tanıdılması üçün görülən tədbirlər geniş vüsət alıb. Məhz Heydər Əliyevin hakimiyyəti dövründə Xocalı soyqırımına, siyasi-hüquqi qiymət verilərək, faciənin dünya ictimaiyyətinə çatdırılması ilə bağlı mühüm işlər görüldü. Hamımıza yaxşı məlumdur ki, möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə bu məsələdə Azərbaycana verilən beynəlxalq dəstək ildənilə daha da güclənir. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü və rəhbərliyi altında "Xocalıya ədalət!" kampaniyası ötən illər ərzində diqqətçəkən uğurlara nail olmuşdur.

Dünyanın ən böyük şəhərlərində, beynəlxalq tribunlarda xocalılıların haqq səsi eşidilməkdədir. Belə ki, dünyanın bir sıra parlamentlərində bu faciəyə soyqırımı kimi qiymət verilir.

### Qazax

Qazaxda Xocalı faciəsinin 27-ci ildönümünə həsr edilmiş "Cəzasız cinayət" adlı ədəbi-bədii kompozisiya və sərgi təşkil olundu. Tədbir iştirakçıları əvvəlcə Gənclər Mərkəzinin foyesində məktəblilərin Xocalı faciəsinə həsr etdikləri 50 rəsm əsərindən ibarət sərgi ilə tanış olublar. Xocalı soyqırımının Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olduğunu qeyd edən rayon icra başçısı Rəcəb Babaşov uşaqların Xocalı faciəsini öz gözləri ilə görmədiklərinə baxmayaraq çəkdikləri rəsmlərdə faciəni canlandırdıqlarını, rəsmlərdə düşmənə nifrətin və Xocalıya ədalətin çox canlı şəkildə əks olunduğunu bildirdi.

Mərkəzin böyük zalında keçirilən tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başladı. Xocalı soyqırımına həsr olunmuş film nümayiş olunduqdan sonra faciə qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

İcra başçısı qeyd etdi ki, Xocalı soyqırımının tanıdılmasında ulu öndər Heydər Əliyevin böyük xidmətləri olmuşdur. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Xocalı faciəsi ermənilərin Azərbaycan xalqına qarşı həyata keçirdiyi soyqırımı aktı kimi təsbit olunmuş, əsl həqiqət dünya dövlətlərinə və beynəlxalq təşkilatlara çatdırılmışdır. Hər il 26 Fevral — Xocalı Soyqırımı Günü kimi qeyd olunur. Respublika Prezidenti İlham Əliyev tərəfindən Xocalı soyqırımının beynəlxalq aləmdə bütün dünya ictimaiyyətinə çatdırılması istiqamətində görülən işlərdən söz açan rayon rəhbəri bu istiqamətdə məqsədyönlü tədbirlərin həyata keçirildiyini qeyd etdi. 2008-ci ildən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" beynəlxalq təbliğat-təşviqat kampaniyasına başlanılmasının bu istiqamətdə görülən mühüm işlərin bariz nümunəsi olduğunu bildirib.

Tədbirin sonunda şəhər 2 saylı Uşaq Musiqi Məktəbinin müəllim və şagird kollektivinin ifasında "Cəzasız cinayət" adlı ədəbi-bədii kompozisiya nümayiş olundu.

### Ağstafa

Ağstafa rayon Mədəniyyət Mərkəzində Xocalı soyqırımının 27-ci ildönümünə həsr edilmiş tədbir keçirilib.

Tədbirdə Ağstafa Rayon İcra Hakimiyyəti başçısı Məhərrəm Quliyev, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, idarə, müəssisə, təşkilatlarının kollektivləri və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Rayon icra hakimiyyəti başçısı aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Lalə Eyyubova çıxış edərək Xocalı faciəsinin Azərbaycan tarixində, xalqımızın yaddaşında dərin iz qoyduğunu, 27 il ötməsinə baxmayaraq faciənin ağrı və acısının daim qəlbimizdə yaşadığını bildirdi. Lalə Eyyubova qeyd etdi ki, Xocalı soyqırımına siyasi-hüquqi qiymət ilk dəfə Azərbaycanın ümummilli lideri Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra verildi. Bu qətliam barədə həqiqətlərin dünya miqyasında yayılması məqsədilə Heydər Əliyev Fondunun böyük işlər gördüyünü diqqətə çatdırdı. Bu faciənin unudulmaması və tarixi həqiqətlərin gənc nəsillərə çatdırılmasının hər kəsin vətəndaşlıq borcu olduğu vurğulandı. Tədbirdə məktəb şagirdlərinin ifasında səsləndirilən vətənpərvərlik mövzusunda musiqilər və şeirlər səsləndi. Sonda Xocalı soyqırımına həsr edilmiş "Gedək Xocalıya" adlı tamaşa nümayiş etdirildi.

### Samux

Rayon İcra Hakimiyyəti və YAP rayon Təşkilatının nümayəndələri, hüquq-mühafizə orqanlarının rəhbərləri, idarə müəssisə və təşkilatlarının rəsmiləri, geniş ictimaiyyətin nümayəndələri və xocalılıların iştirakı ilə Xocalı soyqırımının 27-ci ildönümü ilə bağlı Samux rayon Bayraq meydanından başlayan yürüş, Şəhidlər Kompleksinin önündə başa çatmaqla anım mərasimi keçirilmişdir. Şəhidlər Xiyabanında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi. Xocalı şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilərək, ruhlarına dualar oxundu. Sonra Samux Rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayev çıxış edərək bildirdi ki, Xocalı soyqırımı Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olmuşdur. Azərbaycanın ümummilli lideri Heydər Əliyev Xocalı soyqırımının on illiyi münasibətilə Azərbaycan xalqına müraciətində qeyd etmişdir: "Bu amansız və qəddar soyqırımı aktı insanlıq tarixinə ən qorxulu kütləvi terror aktlarından biri kimi daxil oldu". Azərbaycan xalqı 200 il ərzində erməni millətçi-şovinistlərinin davamlı olaraq etnik təmizləmə, soyqırımı siyasətinə məruz qalmışdır.

Çıxış edənlər birmənalı qeyd etdilər ki, XX əsrin sonunda baş vermiş bu faciə təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biridir. Xocalı soyqırımı əsrin Xatın, Xirosima, Naqasaki və Sonqmi kimi dəhşətli faciələri ilə bir sırada dayanır.

Dünyada qəbul olunmuş beynəlxalq konvensiyalar, ümumbəşəri qanunlar Xocalı faciəsi kimi soyqırımları pisləyir, yolverilməz olduğunu bildirirlər. Azərbaycan xalqı 1948-ci il 9 dekabr "Soyqırımı cinayətinin xəbərdarlıq edilməsi və cəzalandırılması" konvensiyasını rəhbər tutaraq Ermənistan Respublikasına qarşı BMT-nin Beynəlxalq məhkəməsində iddia qaldırmaq üçün bütün hüquqi əsaslara malikdir. Dünya bilməlidir ki, bu cinayət, təkcə Azərbaycan xalqına qarşı deyil, həm də bütün sivilizasiyalı dünyaya, bəşəriyyətə qarşı yönəldilmişdir.Cinayət cəzasız qalmamalıdır.

### Daşkəsən

Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyevin müvafiq sərəncamına əsasən Xocalı faciənin 27-ci ildönümünün rayonda geniş şəkildə qeyd olunmasını nəzərdə tutan tədbirlər planı hazırlanmış, fevral ayının 12-dən 26-dək silsilə tədbirlərlə həyata keçirilmişdir.

Əhəd Abıyev ümumrayon anım mərasimində çıxış edərək bildirib ki, iyirmi yeddi il əvvəl - 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törədiblər.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Xocalı soyqırımının onilliyi münasibətilə Azərbaycan xalqına müraciətində belə demişdir: "Bu amansız və qəddar soyqırımı aktı insanlıq tarixinə ən qorxulu kütləvi terror aktlarından biri kimi daxil oldu".

Qeyd etmək lazımdır ki, Azərbaycan xalqı 200 il ərzində erməni millətçi-şovinistlərinin davamlı olaraq, etnik təmizləmə, soyqırımı siyasətinə məruz qalıb. Bunun nəticəsində də soydaşlarımız öz tarixi dədə-baba torpaqlarından qovulmuş, qaçqına, məcburi köçkünə çevrilmişdir.

Xocalı soyqırımı zamanı 1000 nəfər müxtəlif yaşlı dinc sakin aldığı güllə yarasından əlil oldu. Bir neçə saat ərzində 613 nəfər soydaşımız, o cümlədən 106 nəfər qadın, 63 azyaşlı uşaq, 70 qoca xüsusi qəddarlıqla qətlə yetirilmiş, meyitlər üzərində təhqiredici hərəkətlərə yol verilmişdir. 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 nəfər valideynlərindən birini itirmişdir. Faciə baş verən gecə 1275 nəfər dinc sakin girov götürülmüş, onların 150-nin taleyi indi də naməlumdur.

Bu gün Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması hər bir azərbaycanlının borcudur. Xocalı faciəsi Azərbaycan xalqının heç vaxt unudulmayacaq və ibrət dərsi götürüləcək qan yaddaşıdır. Bu faciəni törədənlər gec-tez ədalət mühakiməsi qarşısına çıxacaq, öz dəhşətli cinayətlərinə görə cavab verməli olacaqlar.

### Tərtər

Xalqımızın tarixinə qanla yazılan Xocalı faciəsinin iyirmi yeddinci ildönümü respublikamızın hər yerində olduğu kimi, Tərtər rayonunda da silsilə tədbirlərlə anılıb.

Fevralın 26-da Tərtər şəhərində ümumrayon yürüşü keçirilib. Minlərlə sakinin iştirak etdiyi yürüş Şəhidlər abidəsinədək davam edib. Rayon rəhbərliyi, ağsaqqallar, gənclər, ziyalılar, müharibə veteranları, əmək kollektivlərinin nümayəndələri, Xocalıdan olan məcburi köçkünlər, N saylı hərbi hissənin əsgər və zabitləri abidə önünə gül dəstələri düzərək faciə qurbanlarının xatirəsini ehtiramla yad ediblər. Xocalıda həlak olanların ruhuna dualar oxunub.

Yeni Azərbaycan Partiyası rayon təşkilatında keçirilən tədbirdə rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov çıxış edərək, erməni silahlı qüvvələri tərəfindən Xocalı şəhərində törədilən qırğından, dinc əhaliyə amansız divan tutulmasından danışıb, gənclərə tariximizi dərindən öyrənməyi, xalqımızın başına gətirilən faciələri heç vaxt yaddan çıxarmamağı tövsiyə edib. Sonra Xocalı faciəsi ilə bağlı nümayiş olunan ədəbi-bədii kompozisiyanın iştirakçılarına fəxri fərmanlar təqdim edilib.

### Cəlilabad

Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı Namiq Zeynalov və ictimaiyyət nümayəndələri Xocalı faciəsi ilə əlaqədar Göytəpə şəhərində məskunlaşmış Xocalı şəhərindən olan məcburi köçkün Zakir Ələkbərovun ailəsini ziyarət etmiş, ailəyə ərzaq yardımı verilmişdir. Məcburi köçkün ailəsi onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərinə minnətdarlığını bildirmişdir. Məcburi köçkün ailəsi ziyarət olunduqdan sonra Cəlilabad rayon Heydər Əliyev Mərkəzində Xocalı faciəsinin 27-ci ildönümünə həsr olunmuş ümumrayon anım tədbiri keçirilmişdir. Tədbirdə rayon icra hakimiyyətinin başçısı Namiq Zeynalov, hüquq-mühafizə orqanları, idarə, müəssisə, təşkilatlar, icra nümayəndələri, bələdiyyələr, təhsil müəssisələrinin kollektivləri və rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişdir. Tədbir iştirakçıları Heydər Əliyev Mərkəzində təşkil edilən "Xocalı soyqırımı uşaqların gözü ilə" mövzusunda rəsm və əl işlərindən ibarət sərgi ilə tanış olublar. Tədbirdə əvvəlcə Xocalı faciəsi qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Daha sonra çıxış edən rayon icra hakimiyyətinin başçısı Namiq Zeynalov 27 il öncə fevralın 25-dən 26-na keçən gecə azğın erməni millətçilərinin keçmiş sovet ordusunun 366-cı motoatıcı alayının köməyi ilə strateji əhəmiyyətə malik Xocalıya hücum etdiklərini və tarixdə misli görünməmiş cinayət törədərək şəhərin dinc, əliyalın sakinlərinə qarşı dəhşətli qəddarlıq nümayiş etdirdiklərini diqqətə çatdırdı.

### Biləsuvar

Biləsuvar Rayon Heydər Əliyev Mərkəzində Xocalı soyqırımının 27-ci ildönümünə həsr olunmuş ümumrayon tədbiri keçirildi.

Tədbir iştirakçıları Xocalı soyqırımından bəhs edən sərgiyə baxdıqdan sonra soyqırım qurbanlarının əziz xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.

Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyev çıxış edərək, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan Silahlı Qüvvələrinin və 366-cı motoatıcı alayın iştirakı ilə Xocalı şəhərində etnik azərbaycanlılara qarşı həyata keçirilən soyqırım haqqında geniş məlumat verdi. Bildirdi ki, erməni millətçiləri tərəfindən Xocalıda xalqımıza qarşı aparılan bu soyqırımı və təcavüz iyirminci əsrin ən dəhşətli və qəddar faciələrindən biridir.

Faciəyə ilk dəfə ümummilli liderimiz Heydər Əliyev tərəfindən siyasi qiymət verildi və Xocalıda belə bir soyqırımın törədilməsi ilə bağlı dünya ölkələrində təbliğati işlərə başlanıldı. Soyqırımının tanıdılması ilə bağlı bu gün də Prezidentimiz cənab İlham Əliyev tərəfindən mühüm addımlar atılır və Ermənistanın Qarabağda hansı vəhşiliklər törətdiyi barədə geniş işlər aparılır. Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondunun da xüsusi xidmətləri vardır. Fondun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə fəaliyyət göstərən "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində dünya ölkələrində mitinqlər, yürüşlər və tədbirlər təşkil olunur.

Tədbirdə M.Quliyev bildirdi ki, bu gün Azərbaycanın öz torpaqlarını qorumağa qadir olan güclü ordusu, onun müdrik, uzaqgörən Prezidenti və Ali Baş Komandanı var. Xalqımız əmindir ki, bir qarış torpaqlarımız belə işğal altında qalmayacaqdır. 2016-cı ilin aprel döyüşləri bunu bir daha həm Ermənistan tərəfinə, həm də bütün dünyaya sübut etdi.

Sonda mədəniyyət işçilərinin hazırladıqları Xocalı soyqırımına həsr olunmuş kompozisiya nümayiş olundu.

### Şəmkir

Tədbirdə rayon icra hakimiyyətinin başçısı Alimpaşa Məmmədov, aparatın əməkdaşları, hüquq-mühafizə orqanları, idarə, müəssisə və təşkilat rəhbərləri, rayonun fəal gəncləri iştirak ediblər.

İştirakçılar Şəmkir Rayon Mədəniyyət Mərkəzinin hazırladığı "Xocalı" tamaşasını izləyib və məktəblilərin söylədikləri şeirləri dinləyiblər.

Sonda tədbir iştirakçıları Şəmkir şəhərində Xocalı abidəsini ziyarət edib və təşkil edilən "Xocalı soyqırımı uşaqların gözü ilə" mövzusunda rəsm, əl işləri və kitablardan ibarət sərgilərlə tanış olublar.

27 il əvvəl 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri mühasirəyə aldıqları Xocalı şəhərində 613 nəfər, o cümlədən, 106 qadını, 63 uşağı, 70 qocanı öldürüb, 487 dinc sakini ağır yaralayıb, 1275 nəfəri girov götürüblər.

Ulu öndər Heydər Əliyevin xalqın istəyi ilə hakimiyyətə qayıdışından sonra bu faciəyə hüquqi-siyasi qiymət verilib. Bu gün Xocalı faciəsinin dünyada tanıdılması Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən birinə çevrilib. Prezident İlham Əliyevin uğurlu xarici siyasəti nəticəsində artıq bir sıra beynəlxalq təşkilatların qəbul etdikləri sənədlərdə Ermənistan işğalçı dövlət kimi göstərilib və Xocalı faciəsinə hüquqi-siyasi qiymət verilib. Xocalı faciəsi Pakistan, Sudan, Meksika, Kolumbiya, Çexiya, Bosniya və Herseqovina, Peru, Honduras, İordaniya və sair kimi dövlətlər və ABŞ-ın 21 ştatı və İslam Əməkdaşlıq Təşkilatı tərəfindən tanınıb. Dünyanın hər yerində Xocalı soyqırımının tanınması ilə əlaqədar işlər davam edir. Bu sahədə, həm də 2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanan "Xocalıya ədalət!" kampaniyası önəmli rol oynayır.

### Gədəbəy

Fevralın 26-da Gədəbəy rayonunda XX əsrin ən dəhşətli cinayətlərindən sayılan Xocalı soyqırımının 27-ci ildönümü münasibəti ilə ümumrayon tədbiri keçirilib. Öncə Xocalı faciəsinin 27-ci ildönümü ilə bağlı rayonunun Şəhidlər Xiyabanında anım mərasimi keçirilmişdir. Mərasimdə rayon icra hakimiyyətinin başçısı İbrahim Mustafayev, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, idarə, müəssisə, təşkilatlarının kollektivləri və rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişlər. Anım tədbirində minlərlə insan tərəfindən vətənin azadlığı, suverenliyi və birliyi uğrunda canlarından keçmiş, günahsız qətlə yetirilən şəhidlərimizin əziz xatirəsi böyük ehtiramla yad edilmişdir. Daha sonra tədbir rayon Aşıqlar evində davam etdirilmişdir.

Tədbirdə əvvəlcə məktəblilərin əl işlərindən ibarət Xocalı soyqırımına həsr olunmuş rəsm sərgisinə baxılmış, Xocalı soyqırımının Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olduğunu qeyd edən RİH başçısı uşaqların Xocalı faciəsini öz gözləri ilə görmədiklərinə baxmayaraq, çəkdikləri rəsmlərdə faciəni canlandırdıqlarını, rəsmlərdə düşmənə nifrətin və Xocalıya ədalətin çox canlı şəkildə əks olunduğunu bildirmişdir.

Xocalı soyqırımı zamanı qətlə yetirilən həmvətənlərimizin və bütün şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Daha sonra Zəhmətkənd kənd tam orta məktəbinin şagird kollektivinin hazırladığı "Xocalıya ədalət" adlı ədəbi-bədii kompozisiya nümayiş olunmuşdur.

**"Respublika".**